*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 dekabr 2017-ci il № 92 (2209) Qiymıəti 25 qəpik


## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev dekabrın 1-də Azərbaycan vətəndaşlarının 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 6-da Xocavənd rayonu Kuropatkino kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Gennadi Petrika keçirəcəklər.

# “Azərbaycan hərbçiləri mübarizdirlər, şərəflə xidmət edirlər”



Ölkəmizin beynəlxalq sülhyaratma əməliyyatlarında iştirakı Kosovoda hərbi münaqişənin yarandığı dövrdən başlayıb və Azərbaycan ilk dəfə olaraq sülhməramlı heyətini 1999-cu ildə həmin bölgəyə göndərib. Sonrakı dövrlərdə isə İraqda beynəlxalq təhlükəsizlik qüvvələrinin tərkibinə daxil olub və yenə də burada sabitliyin, əmin-amanlığın təmin edilməsinə dəyərli töhfə verib. Silahlı Qüvvələrimizin 22 nəfərdən ibarət sülhməramlı taqımı isə 2002-ci ildən Əfqanıstanda fəaliyyətə başlayıb. 2008-ci ildə onların sayı artırılaraq bölük səviyyəsinə çatdırılıb. Milli Məclis sülhməramlı kontingentimizin iki dəfə artırılması haqqında qərarı 2009-cu ildə qəbul edib və elə həmin vaxtdan Əfqanıstanda sülhməramlı missiyanı həyata keçirən hərbi qulluqçularımızın sayı 94 nəfər təyin edilib. Qeyd edək ki, sülhməramlılarımız rotasiya qaydasında hərbi xidmətlərini həyata keçirirlər.

**(Ardı 3-cü səhifədə)**

# Bakıda Azərbaycan-Türkiyə 10-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir

*Dekabrın 5-də Bakıda Azərbaycan-Türkiyə 10-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası öz işinə başlayıb.*



İclasdan əvvəl iştirakçılar Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb.

Şəhidlər xiyabanına gələn nümayəndə heyətləri ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Sonra Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi önünə əklil qoyulub.

Nümayəndə heyətləri plenar açılış iclasında geniş tərkibdə iştirak ediblər. İclasda həmsədrlərin açılış nitqləri səsləndirilib və regional təhlükəsizlik mühitinin vəziyyətinə dair brifinqlər təqdim olunub.

Daha sonra iclas yardımçı işçi qruplarda davam edib.

Dekabrın 7-dək davam edəcək iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti, inkişaf perspektivləri, hər iki ölkənin Silahlı Qüvvələri arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi məsələləri, eləcə də qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müzakirə ediləcək.

Hərbi dialoq çərçivəsində müzakirələrdə cari ildə görülmüş işlər təhlil edilərək 2018-ci il üçün fəaliyyət planı razılaşdırılacaqdır.

Qeyd edək ki, iclasın Azərbaycan tərəfindən həmsədri Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfindən isə Baş Qərargahın Plan, Prinsiplər Baş İdarəsinin rəisi korpus generalı Yavuz Türkgencidir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*5 dekabr 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 138 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Azərbaycan "Asiyanın Qəlbi-İstanbul Prosesi"ndə önəmli rol oynayır"

"Asiyanın Qəlbi-İstanbul Prosesi" çərçivəsində Bakıda keçirilən "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda 7-ci nazirlər konfransında təkcə region üçün deyil, bütün dünya üçün narahatlıq doğuran bir çox problemlər, həmin problemlərin həlli yolları barədə səmərəli müzakirələr aparıldı. Bu tədbirin önəmini artıran mühüm amillərdən biri terrorizmə, ekstremizmə, radikal dini cərəyanlara qarşı birgə mübarizədə səylərin gücləndirilməsi və region dövlətlərinin bu prosesdə fəal iştirakı məsələsinin diqqət mərkəzində olması idi. Azərbaycan "Asiyanın Qəlbi-İstanbul Prosesi"ndə önəmli rol oynayır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında tanınmış amerikalı jurnalist, siyasi şərhçi Piter Teys deyib.

Piter Teys qeyd edib ki, "Asiyanın Qəlbi-İstanbul Prosesi" bölgədə siyasi dialoq və regional əməkdaşlıq üçün vacib regional platformadır. Ona görə də Bakıda keçirilən bu toplantı sülhün, təhlükəsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Əfqanıstanda sülh və sabitliyin, iqtisadi inkişafın əldə olunmasına xidmət edən bu çoxtərəfli əməkdaşlıq platformasında Azərbaycanın fəal iştirakı bütün dünyada yüksək qiymətləndirilir. Azərbaycanın və ABŞ-ın əsgərləri Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyatlarda çiyin-çiyinə fəal iştirak edirlər. ABŞ Azərbaycanın sülh və təhlükəsizliyə yardım məsələsinə töhfələrini hər zaman yüksək dəyərləndirir.

Amerikalı siyasi şərhçi konfransın yekununda qəbul edilmiş Bakı Bəyannaməsində çox vacib məsələlərin yer aldığını vurğulayaraq sənəddə xüsusilə ölkələrin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, daxili işlərə qarışmamaq kimi prinsiplərlə bağlı öhdəliklərin bir daha təsdiq edilməsinə, həmçinin dövlətlərin ərazi bütövlüyünə qarşı güc tətbiq edilməsinin yolverilməzliyinin qeyd olunmasına diqqəti cəlb edib. O əlavə edib ki, Prezident İlham Əliyev də konfransdakı nitqində beynəlxalq hüququn norma və prinsiplərinə hörmət və riayət edilməsinin, xüsusilə suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının, suveren bərabərliyə hörmət və daxili işlərə qarışmamanın regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində təməl olduğunu vurğuladı.

Piter Teys qeyd edib ki, "Asiyanın Qəlbi-İstanbul Prosesi" Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı, mülki insanların qəddarcasına qətlə yetirilməsi, ümumiyyətlə, Ermənistanın faşist rejiminin törətdiyi digər cinayətlərin diqqətə çatdırılması baxımından da yaxşı platformadır.



# Silahlı Qüvvələrin kadr işləri üzrə zabit heyətinin təkmilləşdirmə kursu keçirilib

Silahlı Qüvvələrin kadr işləri üzrə zabit heyəti üçün təkmilləşdirmə kursu təşkil olunub. Kursda "Azərbaycan Respublikası Silahlı Qüvvələrində kadr siyasəti konsepsiyası", "İnsan resurslarının idarə edilməsi haqqında ümumi anlayış", "Faktor analizi üsulu və onun Silahlı Qüvvələrdə tətbiqi imkanları", "Müharibə dövründə zabit və gizirlərin (miçmanların) uçotunun təşkili və aparılması", "Mülki heyətin attestasiya edilməsi və ixtisas dərəcəsinin verilməsi qaydaları", "Hərbi qulluqçularla iş zamanı psixoloji amillərin rolu" və digər mövzularda məruzələr dinlənilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təkmilləşdirmə kursunda şəxsi işlərin tərtibatı, aparılması, saxlanılması və göndərilməsi, zabit və gizirlərin (miçmanların) şəxsi vəsiqələrinin verilməsi, kadr orqanlarında aparılan səfərbərlik üzrə sənədlərin doldurma, şəxsi heyətin əmr layihələrinin hazırlanması qaydaları və s. sahələr üzrə praktiki məşğələlər keçirilib.



# "Azərbaycan hərbçiləri mübarizdirlər, şərəflə xidmət edirlər"

(Əvvəli 1-ci səhifədə)

Statistik məlumat bir daha təsdiq edir ki, müstəqil dövlətimiz humanizm dəyərləri əsasında inkişaf edən dünyəvi bir ölkədir. Bu prinsiplər Azərbaycanın əsas qanunlar toplusu olan və 1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanıb təsdiq edilmiş ilk milli Konstitusiyamızda da öz əksini tapıb. Heç bir ölkənin ərazi bütövlüyünə qəsd edilməsi məqsədi güdməyən Silahlı Qüvvələrimizin tərkibində sülhməramlı heyətin yaradılması ideyası da məhz Ümummilli Liderimizin adı ilə bağlıdır. Dahi rəhbərin 1993-cü ildə xalqımızın təkidi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanın bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da önəmli islahatlar həyata keçirilib. Elə bu islahatlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin yaradılması, NATO və sivil ölkələrlə hərbi əməkdaşlığımızın inkişaf etdirilməsi olub. Ulu öndərimiz Heydər Əliyev hərbi təhsilimizin də dünya standartları səviyyəsinə yüksəlməsinə nail olmaqla qabaqcıl təcrübələrin ordu quruculuğunda tətbiq edilməsini daim tövsiyə edir və bu məqsədlə ABŞ, İtaliya, Almaniya və Türkiyə kimi nüfuzlu ölkələrlə hərbi əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirirdi. Səmərəli hərbi əməkdaşlıq isə ordumuzun hərtərəfli inkişafına dəstək olmaqla bərabər ölkəmizin beynəlxalq imicini formalaşdırdı və belə əlaqələr nəticəsində Azərbaycan sülhməramlı qüvvələrin tərkibində müqəddəs bir vəzifənin - münaqişəyə məruz qalmış insanların əmin-amanlığının təmin edilməsinə öz öhdəliyini verdi. Əvvəlcə Kosovo və İraqda fəaliyyət göstərən sülhməramlılarımız sonrakı dövrdə Əfqanıstandakı beynəlxalq missiyanın tərkibinə qatıldı və hazırda bu ölkədə sabitliyin və əmin-amanlığın qorunmasına dəyərli köməyi əsirgəmirlər.





Bir hərbi jurnalist olaraq sülhməramlılarımızın yolasalınma mərasimlərində bir neçə dəfə iştirak etmişəm və ölkəmizi layiqincə təmsil etmiş oğulların təəssüratlarını qələmə almaq mənə də nəsib olub. Kapitan Pərviz Azayev sülhməramlı qüvvələr tərkibində Vətənimizi təmsil etməkdən yaranan qürurunu bölüşərək demişdi: "Azərbaycandan neçə min kilometrlərlə uzaq bir məsafədə müstəqil dövlətimizi, doğma ordumuzu təmsil etmək, inkişaf etmiş ölkələrin bayraqları sırasında üçrəngli dövlət bayrağımızın da dalğalandığını seyr etmək adama bir ömürlük fərəf bəxş edir." Həmin gün təkcə kapitan Azayevin deyil, bütün sülhməramlılarımızın simasından hiss etdiyim xoşbəxtlik mənə də azərbaycanlı olmağımın sonsuz qürurunu bəxş etmişdi və qeyri-ixtiyari müasir dövlətçiliyimizin banisi olan ulu öndər Heydər Əliyevi, onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözlərini xatırlamışdım. Doğrudan da, vətəndaşı olduğun bir ölkənin adı uca tribunalardan çəkilirsə, bayrağımız, gerbimiz, himnimiz neçə dövlətin rəmzləri ilə yanaşı qeyd edilirsə, bu, dünyaya sığmayan böyük şərəf və qürurdur. Kapitan söhbətində deyirdi ki, bir dəfə beynəlxalq təhlükəsizlik qüvvələrində təmsil olunan hərbi qulluqçular arasında keçirilən döyüş hazırlığı yarışmasında Azərbaycan ABŞ və Kanadadan sonra 3-cü yeri tutub. Həmin vaxt bu hadisə dünya mediasının gündəmini zəbt etmişdi və ölkəmizin rəhbərliyinə, həmçinin Azərbaycanın Müdafiə Nazirliyinə NATO Komandanlığından minnətdarlıq məktubu gəlmişdi. ABŞ-ın ölkəmizdəki səfirləri də dəfələrlə sülhməramlı əsgər və zabitlərimizin nümunəvi xidməti barədə ölkə rəhbərliyini məlumatlandırıblar.

Müasir dövrdə Azərbaycan dövlətinin artan hərbi qüdrəti sayəsində sülhməramlı bölmələrimizin yerləşdiyi hərbi hissədə yenidən qurulub və burada ən yüksək tələblər səviyyəsində xidmət şəraiti yaradılıb. Bir neçə il öncə, Silahlı Qüvvələr Günü ərəfəsində, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmin hərbi hissənin açılış mərasimində iştirak etmişdi. Burada yaradılan yüksək şəraitlə yaxından tanış olan dövlət başçısı qeyd etmişdi ki, Azərbaycan güclü dövlətdir və güclü ordusu vardır. "Azərbaycanda ordu quruculuğu məsələsi daim mənim diqqətimdədir və bu sahənin inkişafına bundan sonra da diqqət yetiriləcəkdir", deyən Prezident İlham Əliyevin siyasi xəttində ölkəmizin hərbi potensialının artırılması mühüm yer tutur. Dövlətin, xalqın öz ordusuna göstərdiyi diqqət və qayğı isə bütün hərbi qulluqçular kimi, sülhməramlılarımızı da yeni-yeni uğurlara ruhlandırır.

Hazırda Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, sülhməramlı bölmələrimiz də dərs və təlimlərdə fəal iştirak edərək hərbi vərdişlərini daha da təkmilləşdirir. Bu məqamda bir vacib məsələni də qeyd edim ki, son illər Azərbaycanın ordu quruculuğunda aparılan islahatlar sülhməramlı şəxsi heyətə də döyüş və mənəvi-psixoloji ruhunu daha da artırıb. Artıq bu bölmələrə də müqavilə əsasında peşəkar hərbçilər cəlb olunub və təlimlərdə onların hazırlıq səviyyəsinin artırılması üçün bütün zəruri imkanlar yaradılıb. Əlbəttə, əsas məqsəd xarici dövlətlərdə ölkəmizin layiqincə təmsil edilməsidir və bu baxımdan həmin şəxsi heyətə yüksək mənəvi dəyərlərimiz, tariximiz, qədim və dini adət-ənənələrimiz müfəssəl aşılanır.

Azərbaycan rəhbərliyi daim dövlətimizin sülhsevər mövqeyini ifadə edərək xalqların əmin-amanlığının qorunmasına və ölkələrin ərazi bütövlüyünə birmənalı dəstəyini büruzə verir. Noyabrın sonlarına yaxın Brüsselə səfər edən Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun baş katibi ilə görüşdü və Əfqanıstanda sabitliyin, sülhün təmin edilməsinə töhfə verən sülhməramlı kontingentimizin say tərkibinin artırılmasını təklif etdi. Mötəbər beynəlxalq qurumun rəhbərliyi də öz növbəsində sülhün qorunmasına, terrorizmlə mübarizəyə göstərilən möhkəm dəstəyə görə dövlətimizin başçısına və xalqımızın ünvanına öz minnətdarlığını çatdırdı.





Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev NATO toplantısındakı çıxışında Əfqanıstanda sülh, təhlükəsizlik və sabitliyə daha da artıq töhfə vermək üçün hərbi qulluqçularımızın sayını artıracağını bildirib.

Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasında iştirak edən Azərbaycan sülhməramlılarının sayının artırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi tapşırıq Müdafiə Nazirliyi tərəfindən icra olunmaqdadır.

Bu siyasi qərarın həyata keçirilməsi ilə əlaqədar müvafiq dövlət qurumları, eləcə də NATO komandanlığı ilə əlaqəli şəkildə prosedurlar yerinə yetirilir. Sülhməramlıların sayının artırılması prosesinin gələn ilin ilk rübünədək həyata keçirilməsi planlaşdırılır.

Bildiyiniz kimi, Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani dekabrın 1-də ölkəmizə rəsmi səfərə gəldi. Azərbaycanın dövlət başçısı ilə həm təkbətək, həm də nümayəndə heyəti tərkibində keçirilən görüşlərində və mətbuata bəyanatında əfqanlı qonaq da öz ölkəsində sabitliyin qorunmasında fəal iştirakına görə dövlətimizə dərin minnətdarlığını bildirdi və qeyd etdi ki, Azərbaycan hərbçiləri mübarizdirlər və şərəflə xidmət edirlər. Göründüyü kimi, illərdən bəri əhalisi hərbi münaqişədən əziyyət çəkən ölkənin birinci adamı hərbi qulluqçularımız barəsində necə də yüksək fikir bildirib. Bu, əlbəttə, əsgər və zabitlərimizin xidmətlərinə görə dövlətimizin aliliyinə, xalqımızın, millətimizin böyüklüyünə verilən dəyərdir və bu yüksək qiymət hər bir vətəndaşımızda sonsuz qürur yaradır. Əminliklə demək istərdim ki, hərbi qüdrətini artıran ordumuzun hünər və şücaəti sayəsində tezliklə torpaqlarımız da işğaldan azad ediləcək və Azərbaycan vətəndaşları, dünyanın hər yerində yaşayan soydaşlarımız böyük qələbəmizin təntənəsini yaşayacaqlar.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# “N” hərbi hissəsində “Qazax - xidmət etdiyin diyar” kitabının təqdimat mərasimi keçirilib



*Dekabrın 1-də N nömrəli hərbi hissədə "Qazax - Xidmət etdiyin diyar" kitabının təqdimat mərasimi keçirilib. Mərasimdə rayon rəhbərliyi, Müdafiə Nazirliyinin əməkdaşları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, məktəb direktorları, ziyalılar və ağsaqqallar iştirak ediblər.*

AZƏRTAC xəbər verir ki, tədbirdə Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani çıxış edərək, "Qazax - xidmət etdiyin diyar" kitabının məziyyətlərindən söz açıb. Bildirib ki, Qazax rayon İcra Hakimiyyətinin dəstəyi ilə işıq üzü görən kitab-albomda Prezident İlham Əliyevin Qazaxa səfərləri, rayonun tarixi, dünəni, bu günü, yaradıcı insanları, tarixi abidələri, Milli qəhrəmanları, şəhidləri, hərbçiləri, tarixi şəxsiyyətləri, rayonda inşa edilmiş sosialyönümlü obyektləri haqqında xronoloji məlumatlar və şəkillər dərc edilib. Nəfis tərtibatda nəşr olunmuş kitab-albom Qazax rayon İcra Hakimiyyətinin və qədirbilən qazaxlıların rayonun müdafiəsində mərdliklə dayanan Vətən əsgərlərinə hədiyyəsidir.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxışında bildirib ki, Ümummilli Liderin söylədiyi kimi, "Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır. Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir".

Rəcəb Babaşov Qazaxda bir neçə gün öncə keçirilmiş "Ordumuz - qürurumuz, xalqımız - dayağımız" devizi altında təşkil olunmuş möhtəşəm tədbirdən söz açaraq qeyd edib ki, həmin ümumxalq tədbirində xalqımız ordu ilə, ordumuz isə xalqla bir və həmrəy olduğunu bir daha nümayiş etdirdi. Azərbaycanda ilk dəfə keçirilən bu pilot layihə qazaxlıların orduya daim dəstək olduğunu əyani şəkildə göstərdi.

Sonra Rəcəb Babaşov "Qazax - xidmət etdiyin diyar" kitabını tədbirdə iştirak edən hərbçilərə, müharibə veteranlarına və ağsaqqallara hədiyyə edib.



Böyük Vətən müharibəsi veteranı Xanqulu Süleymanov, Əməkdar İdman ustası Ramiz Tağıyev, el ağsaqqalı Mustafa Mahmudov, şəhid Mühüd Orucovun atası Qurban Orucov və başqaları çıxış edərək Qazaxın düşmən qarşısında bir sipər, qala olmasından söz açıb, "Qazax - xidmət etdiyin diyar" kitabının xalqla ordu birliyinə ən gözəl töhfə olduğunu qeyd ediblər.

Aşıqlardan Camoy Qurbanov və Samir Allahverdiyev Vətənə, orduya həsr olunmuş mahnılar ifa ediblər.

Sonra tədbir iştirakçıları “N” hərbi hissəsində yaradılmış nümunəvi şəraitlə yaxından tanış olub, əsgər yataqxanalarına, yeməkxanaya, əsgərlərin xidmət etdiyi sahələrə baxıblar.

Tədbir iştirakçıları ön cəbhəyə gedərək, burada xidmət edən əsgərlərlə görüşüb, hərbçilərə hərbi xidmətdə uğurlar arzulayıblar.

# Sərhəd kəndi Hacallıda yeni su qovşağı istifadəyə verilib

*Hacallı kəndi Tovuz rayonunun Ermənistanla təmas xəttinə yaxın olan yaşayış məntəqələrindəndir. Uzun illərdir ki, düşmənlərin xain həmlələrinə tuş gəlsə də, dəfələrlə atəşlərə məruz qalsa da, ordumuzun bölmələri tərəfindən bu kənd mərdliklə qorunur, güllə, mərmi səslərinə alışmış kənd əhalisi doğma yurd-yuvasını tərk etmir və Hacallıda həyat öz axarında davam edir.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ermənistanla həmsərhəd olan digər yaşayış məntəqələrimiz kimi, bu kəndin müdafiəsi, əhalinin təhlükəsizliyinin təmin edilməsi, eləcə də hacallılıların sosial problemlərinin həlli də ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Prezident İlham Əliyevin tapşırığına əsasən, kənddə eni 10 metr təşkil edən yeni yollar çəkilib, asfalt-beton örtüyü döşənib, Qasım Rzayev adına Hacallı kənd tam orta məktəbi üçün yeni bina inşa edilərək istifadəyə verilib. Əhalinin gün-güzəranı günbəgün yaxşılaşır.

Vaxtilə Tovuzçaydan su çəkilsə də, kəndin dəniz səviyyəsindən 980 metr hündürlükdə olan yuxarı hissəsində yaşayanlar su sarıdan korluq çəkir, yalnız yağışın ümidinə qalırdılar. İki ay öncə kənd əhalisi ilə görüşən, onların problem və qayğıları ilə maraqlanan Müdafiə Nazirliyinin rəhbərliyindən ağsaqqallar bu işdə onlara yardımçı olmağı xahiş etmişdilər. Artıq hacallıların bu problemləri də öz həllini tapıb və uzun illərdir ki, həsrətində olduqları arzu reallaşıb.

Müdafiə Nazirliyinin sərhəd kəndinin əhalisinə hədiyyəsi olan su qovşağının istifadəyə verilməsinə həsr olunmuş tədbirdə hərbi qulluqçular, rayon ictimaiyyətinin nümayəndələri, kənd sakinləri iştirak ediblər.

Nazirliyin zabiti, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani çıxışının əvvəlində xalqımızın ümummilli lideri Heydər Əliyevin kəlamlarını xatırladaraq deyib: “Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir”.

Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərimizin bu arzusu da ölkəmizdə uğurla reallaşdırılır. Xalqla ordunun sağlam mənəvi birliyi, həmrəyliyi təmin olunub. Xalq öz ordusuna güvənir, ona arxalanır, ona inanır. Ordumuzun şəxsi heyəti isə xalqın bu inamından, bu güvənindən daha da ruhlanaraq, qarşısına qoyulmuş vəzifələri layiqincə yerinə yetirir.

General-mayor Xəqani Cəbrayılov su qovşağının istifadəyə verilməsi münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından sakinləri təbrik edib. Bundan sonra da kəndin etibarlı şəkildə müdafiə olunacağına, düşmən təxribatlarının qarşısının layiqincə alınacağına, Azərbaycanın ərazi bütövlüyünün tezliklə təmin olunacağına əminliyini bildirib.

Tədbirdə vurğulanıb ki, qovşaqda iki min metrlik su xətti çəkilib, hər biri 25 ton su tutumu olan 7 çən, su nasosu, transformator quraşdırılıb. Su qovşağının xidmətindən kəndin 100-ə yaxın ailəsi bəhrələnəcək.

Hərbi mühəndislər bu xeyirxah işi böyük həvəslə başa çatdırıb və su xəttini keşiyində durduqları sərhəd kəndinin sakinlərinin istifadəsinə veriblər. Bundan əlavə, su qovşağı ətrafında səliqə-sahman yaradılıb, yaşıllıq zolağı salınıb.

Tovuz rayon İcra Hakimiyyəti başçısının müavini Nifdalı Qasımov, Hacallı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Sahib Quliyev, kəndin qocaman sakinlərindən Lətif Əliyev, Abuzər Kərimov, Əhməd Əfkarov və başqaları çıxış edərək göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edib, Ali Baş Komandanın hər bir əmrinə daim hazır olduqlarını bildiriblər.

Azərbaycan Yazıçılar Birliyi zona filialının sədri, Əməkdar İncəsənət xadimi, şair-publisist Barat Vüsal "Yol salmaq, su çəkmək ulu babalardan mirasdır bizə" adlı yeni şeirini oxuyub və bu nəcib, xeyirxah təşəbbüsə görə əməyi keçənlərə ziyalılar adından təşəkkür edib.

Müdafiə Nazirliyinin adından kənd tam orta məktəbinə bayraqlar və hərbi vətənpərvərlik mövzusunda kitablar hədiyyə edilib.

# Uğurlu məşq qələbəyə təminatdır

*Azərbaycan əsgərinin döyüş meydanında mübarizələrdə göstərdiyi fədakarlıq, aprel zəfərinə imza atması, sözün əsl mənasında, qəhrəmanlıq dastanıdı. Böyük bir amal uğrunda mübarizə aparan gənclərin komandirlərinə güvənib, silahına sarılıb, biliyinə əsaslanıb ülvi hisslərlə Vətəninin keşiyində dayanması onların Vətən qarşısında əsl övlad haqqıdır. Bu haqq Mübarizin, Samidin, Çingizin... bütün şəhidlərimizin timsalında müqəddəslik mərhələsində yaşadılan yaşam fəlsəfəsidi.*



Ömür deyilən zaman kəsimini Vətən üçün məsuliyyətlə yaşayan Azərbaycan əsgəri ona tapşırılan mövqeyi sayıqlıqla qorumağa, düşmənin hər bir tərpənişini müşahidə etməyə və ən nəhayət, torpaqlarımızı düşmən işğalından azad etməyə hazırdı. Bu müqəddəs vəzifənin öhdəsindən bacarıqla gələn "N" hərbi hissəsinin bir qrup şəxsi heyəti də payızın soyuq, küləkli bir günündə təlim meydanında atış və atışın idarə olunması məşqinə qatılıb.

Məşq prosesi zamanı diqqətimi səngərdə dayanıb əlləri ilə qarşı tərəfi göstərən, əsgərlərinə nə isə izah edən bir zabit cəlb edir. Həmin məqamda mənə elə gəlir ki, zabit sinəsini Vətənə səngər bilən Azərbaycan əsgərinə duyğulu düşüncələrini çatdırır: "Çoxdandı o dağlara, əzəli yurdlarımıza - Xankəndinə, Şuşaya, Laçına, Kəlbəcərə, Xocalıya... gedib-gələ bilmirik. Vüqarımız, qürurumuz, baş tacımız, qeyrət qalamız olan o uca dağlar bizi səbirsizliklə gözləyir. Biz bu torpaqları geri qaytara bilməsək, babalarımızın ruhu bizi bağışlamaz. Ona görə də son damla qanımıza qədər döyüşməli və torpaqlarımızı azad etməliyik. Xalqımızın bizə inamı, güvəni sonsuzdur və borcumuz bu inamı, etibarı doğrultmaqdır. Torpaqlarımızın müdafiəsi naminə qələbəyə qədər döyüşəcək, Ağdam, Xankəndi, Şuşa, Laçın, Füzuli və işğal altında olan digər torpaqlarımızı da erməni işğalçılarından azad edəcəyik!"

- Gördüyünüz kimi, bölmələrimizin şəxsi heyəti məşq prosesinə cəlb olunaraq hər bir vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışır, - deyə zabit Natiq Musayev bildirir. - Ön xətdəki bölmələrimiz həmişəki kimi döyüş növbəsi aparır. Ehtiyatda olan bölmələrimiz isə döyüş dərslərinə cəlb olunub, ixtisas bacarıqlarını artırır. Yəni, bizim üçün vərdiş etdiyimiz adi günlərdən biridir. Ancaq adi dediyimiz bu məşqlərin əhəmiyyəti böyükdür. Çünki əsgər həm döyüş, həm də mənəvi-psixoloji cəhətdən hazırlıqlı olmalıdır. Yüksək vərdişlərin təməli isə təbii olaraq məşq və təlimlərdə qoyulur.

Əsgər Yusif Abbasov söhbətə qoşularaq bildirir ki, məşq prosesində əsas iş ərazinin kəşfiyyatını aparmaqdır. O, hesab edir ki, düşmənlə mübarizədə döyüşlərin uğurlu keçirilməsi, yüksək səviyyədə, davamlı, vaxtında keçirilən və məlumatları dəqiq olan kəşfiyyatdan asılıdır.

- Kəşfiyyatçının vəzifəsinə düşmənin yerləşdiyi mövqenin, döyüş sursatlarının, mümkün ərazidəki texnikalarının mükəmməl döyüş vərdişlərinə yiyələnməsi, yerləşən qurğuların real vəziyyəti, düşmənin mövqelərinə yaxınlaşmaq üçün yol və keçidlərin müəyyənləşdirilməsi aiddir, - deyə əsgər Yusif Abbasov söhbətinə davam edir. - Başa düşürük ki, müharibə şəraitindəyik. Hələ ki, müharibə başa çatmayıb, bu müharibə torpaqlarımız işğaldan azad ediləndən sonra başa çatacaq. Ona görə də döyüş zamanı düşmənin yerləşdiyi ərazinin kəşfiyyatını aparmaq, əsgərlərimizin qələbəsinə vəsilə olmaq məqsədini daşıyır. Bu baxımdan bugünkü təlim-məşq prosesini Qələbəyə doğru atılan bir addım hesab edirəm və bu işdə az da olsa zəhmətim olduğuna görə özümü xoşbəxt sanıram.

Söhbətə qoşulan əsgər Kənan Əliyev isə bildirir ki, hər birimizin qəlbində müqəddəs bir hiss - Vətənə məhəbbət hissi yaşayır. "Sərhəddən başlayan Vətən sevgisi məndən, səndən bütün Azərbaycana yayılır. Ona görə də Vətənimizin hər qarışı bizim üçün əzizdir. Məşq prosesi zamanı düşmənlə aramızda olan məsafəni ölçərkən bir hiss məni rahat buraxmır - axı göz oxşadıqca nəzər yetirdiyim torpaqlar da xalqımıza məxsusdur. Düşmən sərhədlərimizi parçalasa da, ürəyimizi, beynimizi, əyilməz ruhumuzu parçalaya bilmədi. Ona görə əminliklə deyirəm, Azərbaycan Ordusu varsa, deməli, Azərbaycan torpaqları mütləq işğaldan azad olunacaq və yurdumuzun hər qarışında üçrəngli bayrağımız dalğalanacaqdır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

## Azərbaycan Beynəlxalq Hərbi Tibb Komitəsinin tamhüquqlu üzvü seçilib

Hindistanın paytaxtı Nyu-Dehlidə keçirilən Beynəlxalq Hərbi Tibb Komitəsinin 42-ci Ümumdünya Konqresində Azərbaycan Respublikası bu komitənin tamhüquqlu üzvü seçilib. Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, general-mayor Natiq Əliyev isə Beynəlxalq Hərbi Tibb Komitəsində Azərbaycan Respublikasının Milli nümayəndəliyinin rəhbəri təyin edilib.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyətinin Türkiyə və Böyük Britaniyadan olan həmkarları ilə görüşləri keçirilib. Tərəflər bu görüşlərdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, 1921-ci ildə Belçika Krallığında yaradılan Beynəlxalq Hərbi Tibb Komitəsi Cenevrə Konvensiyalarının prinsiplərini daha dolğun yerinə yetirmək və hərbi təbabət sahəsində elmi məlumat mübadiləsini təmin etmək məqsədilə təsis edilib.

Hazırda 112 dövlətin üzv olduğu Beynəlxalq Hərbi Tibb Komitəsinin əsas vəzifəsi hərbi tibb sahəsində texnoloji və elmi təcrübə mübadilələrini təşviq etməkdir.

# Qaliblər mükafatlandırıldı




*Dekabrın 1-də Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ordu həmkarları arasında il ərzində təşkil edilən kütləvi idman yarışlarının yekunu ilə bağlı tədbir keçirdi.*

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni oxundu.

Silahlı Qüvvələrdə çalışan mülki işçilərin istirahət və asudə vaxtının səmərəli təşkilinə xidmət edən belə tədbirlər kollektivlərdə mənəvi dəyərlərin inkişaf etdirilməsinə, işçilər arasında səmimi birliyin möhkəmləndirilməsinə zəmin yaradır. Məhz bu baxımdan mədəni-kütləvi və idman tədbirlərinin maraqlı keçirilməsi, kollektivlər üçün əsl bayram, həqiqi istirahət, sağlam həyat deməkdir. Belə tədbirlər həmişə üzvlərə xoş təəssüratlar bağışlayır, müsbət enerji aşılayır. Bu məqamları daim diqqət mərkəzində saxlayan Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi fəaliyyət göstərdiyi uzun illər ərzində ordu həmkarlarının sosial-iqtisadi maraqlarının müdafiəsini həyata keçirməklə yanaşı, üzvlərinin istirahətini də yaddan çıxarmır.

Tədbir çərçivəsində ordu həmkarları stolüstü idman növləri üzrə güclərini sınayıblar. Mübarizənin sonunda şahmat üzrə Elbrus Kələbiyev qalib olub. Eldar Rəfiyev 2-ci yerə, Arif Novruzov və Cəmilə Həsənova isə 3-cü yerə layiq görülüblər. Dama yarışında isə Rəşad Zeynalov 1-ci, Natiq Nuriyev 2-ci, Arif Əsgərov və Kazım Mirzəyev isə 3-cü yeri tutublar.



Qaliblərin mükafatlandırılması mərasimində çıxış edən Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova, mədəni-kütləvi idman tədbirlərinin lazımi səviyyədə təşkilinə, işçilər arasında işgüzar mənəvi iqlimin daha da yaxşılaşdırılmasına görə Müdafiə nazirinin rəhbərliyinə, şəxsən nazir general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirdi.

- Belə tədbirlərin təşkili əsas vəzifələrimizdən biridir. Fəhlə və qulluqçuların istirahətinin təşkilində əhəmiyyətli rol oynayan belə tədbirlər kollektivlərdə sağlam mühit formalaşdırır, insanlara xoş əhval-ruhiyyə aşılayır. Hərbi hissə və müəssisələrdə çalışan üzvlərimizin hüquq və maraqlarının müdafiəsinin qorunması, sosial rifah halının yaxşılaşdırılması daim dövlətimizin diqqətindədir.

Sonra "N" hərbi hissəsinin Həmkarlar İttifaqı Komitəsinin sədri Sahib Əsədov çıxış edərək qalibləri təbrik etdi və belə tədbirlərin kollektivlər arasında səmimi, mehriban münasibət formalaşdırdığını qeyd etdi.

Sonda qaliblər fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Mənim dünyam"



*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində hərbi qulluqçuların və ailə üzvlərinin xüsusi istedad və bacarıqlarını nümayiş etdirmək və hərbi kollektivlərdə milli-mənəvi dəyərlərə bağlılığın formalaşdırılması məqsədi ilə əl işlərindən ibarət "Mənim dünyam" adlı bədii yaradıcılıq sərgisi keçirildi.*

Tədbirdə "N" hərbi hissəsinin şəxsi heyəti, Rəssamlar İttifaqının və ictimaiyyətin nümayəndələri, kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərkəzi Zabitlər Evinin Mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova tədbiri açaraq bildirdi ki, biz bu məkana insan duyğularının təlatümündən yaranan ecazkar və sehrli bir sənət olan incəsənətin hərarətli işığına yığılmışıq. "İnsan təbiətin yaratdığı canlılardan biri olsa da, yeganə varlıqdır ki, hər şeyə yaradıcı münasibət bəsləyir. Buna görə də tədbirin adını təsadüfən "Mənim dünyam" adlandırmamışıq. Çünki burada nümayiş etdirilən hər bir əsər, hər bir əl işi müəllifin mənəvi dünyasının ifadəsidir..."

Rəssamlar İttifaqının dekorativ tətbiqi sənət bölməsinin sədri, əməkdar rəssam Aydın Rəcəbov rəsm sənətinin tarixindən söz açdı, hərbçilərin dünyagörüşlərinin formalaşdırılması baxımından əhəmiyyətini bildirdi.

Sərgi rəngkarlıq, heykəltəraşlıq, dekorativ tətbiqi sənət, qrafika, keramika, bədii toxuculuq (tikiş, naxış), maket və digər əl işləri üzrə sahələri əhatə edirdi.



Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin maraqlı konsert proqramının müşayiəti ilə iştirakçılar sərgiylə tanış oldular.

Miçman Surac Əsgərovun, kiçik çavuş Rumiyyə Ağayevanın, matroslar Seymur Bayramlının, Kamal Bəşirlinin, hərbi qulluqçuların ailə üzvlərindən Məhin İbrahimovanın, Həcər Əliyevanın, Allahverdi Əliyevin və başqalarının əl işləri sərgidə maraqla qarşılandı.

Sonda yaradıcı iştirakçılara fəxri fərmanlar təqdim olundu.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

## Ombudsman aparatının nümayəndələri cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İnsan hüquqları üzrə müvəkkilin birgə planına əsasən, Ombudsman aparatının nümayəndələri cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ombudsman aparatının nümayəndələri Fəzail Həsənov və Vüqar Heydərov hərbi qulluqçuların məişət şəraiti ilə tanış olub, hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətini öyrənib və şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.



Aparatın əməkdaşları əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri, məişət və digər inzibati otaqlara baxış keçirərək qidanın və müalicə işinin keyfiyyəti, asudə vaxtın keçirilməsi üçün yaradılan şərait, şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndiriblər.

## "Ermənistan ordusunun keçirdiyi təlimlər bu ölkənin xalqını aldatmaq üçündür"

Ermənistan ordusunun işğal olunmuş ərazilərimizdə qondarma Artsaxla "birgə" keçirdiyi təlimlər sadəcə öz xalqını aldatmaq üçündür.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "Dağlıq Qarabağ respublikası" ilə "birgə" keçirdiyi təlimlərə münasibət bildirən hərbi ekspert, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov AZƏRTAC-a bildirib ki, ermənilər həmişə olduğu kimi, yenə də qanunsuz hərəkət edirlər.

Y.Aydəmirov deyib: "Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ ərazisində necə təlim keçirə bilər? Bu ordunun Azərbaycan ərazisində nə işi var? Dağlıq Qarabağ ərazisində fəaliyyət göstərən qondarma "Dağlıq Qarabağ ordusu" qanunsuzdur. Beş-altı tankı kor-koranə ora-bura hərəkət etdirməklə, 1-2 taboru yerindən tərpətməklə "irimiqyaslı təlim" keçirmək olmaz. Buna hər bir hərbçi də, vətəndaş da baxanda bilir ki, orada irimiqyaslı təlimlərdən söhbət gedə bilməz. Sadəcə istəyirlər ki, bizim hərbçilər yenə onlara reaksiya versinlər. Amma bu elə bir irimiqyaslı təlim deyil ki, ona reaksiya verək. Bu, yalnız öz xalqını aldatmaq üçün ermənilərin növbəti şousudur. Onlar öz ordularında korrupsiyanı bir az da inkişaf etdirmək, vəsait silmək üçün belə gülünc təlim təşkil ediblər".

"Təlimlərdə" iriçaplı pulemyotlardan, top, artilleriya, raket sistemlərindən, zirehli texnikalardan, özüyeriyən artilleriya sistemlərindən istifadə edilmədiyini, atışların aparılmadığını xüsusi vurğulayan hərbi ekspert bildirib: "Bütün bunlar xeyli vəsait tələb edir. Bunlarsız irimiqyaslı təlim keçirmək olmaz. Bu, sadəcə gözə kül üfürməkdir. Bunların hamısı cəfəngiyyatdır, kiçik məqsdir. Ona görə də ermənilər bunu şişirtməyə cəhd edirlər. Döyüş texnikasının, təlimə cəlb olunan şəxsi heyətin sayı göstərir ki, bu, irimiqyaslı təlim deyil. Çünki onlarda nə o qədər vəsait, nə şəxsi heyət, nə də texnika var. Texnikanın da istifadə edilməsi üçün Ermənistan ordusunda maddi-texniki təminat məsələlərində də ciddi problemlər mövcuddur", - deyə Y.Aydəmirov qeyd edib.

## Ermənistanın növbəti ədabazlığı, yaxud düşmən ordusunun rəhbərliyi Sarkisyanı aldadır

*Dekabrın 2-də üzdəniraq Ermənistan adlı qurumun rəhbəri Serj Sarkisyan başda olmaqla quldur yığınından ibarət dəstənin üzvlərinin iştirakı ilə işğal olunmuş ərazilərimizdə qondarma Arçaxla birgə təlimlər keçirildiyi bildirilib. Bu təlimləri bədnam qonşularımızın öz xalqı üçün quraşdırdığı şou və ermənisayağı növbəti ədabazlıq adlandırmağımız daha düzgün olardı.*

Təlim adlandırmağa dilimiz gəlməyən toplantıdan yayılan foto və videoları diqqətlə izləsək düşmən ordusunun rəhbər heyətinin sifətlərindən həm təlimlərə, həm də Sarkisyana olan nifrəti aydın sezmək olar. Müşavirə otağına zorla gətirilən şəxsi heyətin üzlərindəki laqeyd baxışlar orada baş verən hadisələrə marağın olmamasını açıq-aydın hiss etdirir.

Ermənistan animatorlarının video materiallar üzərində qrafika montajı, şəkillərdə isə fotoşop üsulu ilə cadükarlıq etmələri də işə əsla yaramayıb. Yayılan videogörüntülər təlimdən çox, məhəllədə uşaqların oynadıqları "dava-dava" oyununu xatırladır.

Yalnız bir tabor sayında texnika toplayan Ermənistan rəhbərliyinin bu təlimləri utanmadan "miqyaslı təlim" adlandırması çox gülüncdür. Azərbaycan Ordusunun birləşmə səviyyəsində təlimi ermənilərin "miqyaslı" təlimlərindən dəfələrlə üstündür.

Səylə montaj edilmiş video görüntülərdə 2-3 PDM və 3 ədəd tank dağda-dəşda tozanaq qopararaq mənasız yerə ora-bura "çapır". Ermənistan ordusu rəhbərliyinin cəhdlərinə baxmayaraq, təlimlərə cəlb edilən texnikaya "ən müasir" döyüş texnikası deməyin də yalan olduğu video-süjetdən aydın görünür. Dağlıq əraziyə bənzər təlim mərkəzində, təpələrin ətəyində, soyuqdan əsnəyən tamaşaçıların qarşısında ora-bura sürülən döyüş maşınlarının kiçik bir maneəni dəf edərkən nə qədər çətinlik çəkərək ətrafı qara tüstüyə qərq etməsi və ensiz yarğanı keçmək istərkən hansı hala düşməsi dediklərimə sübutdur.

Xeyli sayda media işçisinin təlimi izləməsinə baxmayaraq, oyuncaq müharibə səhnələri barədə məlumat yalnız Ermənistan Müdafiə Nazirliyinin nəzarətində olan saytda yer aldı. Bu isə onu deməyə əsas verir ki, yalançı təlimlər hətta Ermənistan mətbuatı üçün heç bir maraq kəsb etmir.

Dediklərimizdən bu hasil olur ki, kriminal hərbi-siyasi rejimin ordu rəhbərliyi Ermənistan prezidentinin başını aldatmaqla gözünə kül üfürür. Bəlkə də o özü anlamır ki, ona nümayiş etdirilənlərin hamısı qurama, müasir hərb elmindən uzaq, oyuncaq şavaş ssenarisdir. Ya da ki, o özü, müdafiə nazirliyinin rəhbərliyi ilə birlikdə belə səhnəciklər qurmaqla erməni xalqının başını aldatmaqda davam edir.

**İsa İSMAYILOV,
hərbi jurnalist**

# Azərbaycanın ilk Milli Qəhrəmanının xatirəsi anılıb

1991-ci ilin fevralı idi. Yusif Əliyev Goranboyda ilk döyüş sınağından çıxmışdı. Silahlı erməni hərbçiləri Buzluq, Mənəşid və Erkəc kəndləri tərəfdən pusqu quraraq tez-tez basqınlar edir, yolları kəsirdilər. Fevralın 24-də səhər sübh çağı 500-ə yaxın erməni quldur Mənəşid kəndinə hücuma keçdi. Qüvvələr qeyri-bərabər idi. Yusifin də tərkibində döyüşdüyü polis dəstəsi öz əlverişli mövqeyini qoruyub saxlamağa çalışırdı. Düşməni planlı şəkildə yaxına buraxır və müxtəlif istiqamətlərdən onları hədəfə alırdılar. Əvvəlcə hər şey nəzərdə tutulduğu kimi gedirdi. Lakin düşmən xeyli itki versə də, geri çəkilmək istəmirdi. Dəstənin döyüş sursatı tükənmək üzrə idi. Bunu görən Yusif 14 nəfərdən ibarət qrup yaradaraq əlbəyaxa döyüşə atıldı. Gözlənilməz hücumdan özlərini itirən ermənilər pərən-pərən düşdülər...



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Yusif Əliyevin bu şücaəti barədə Ağsunun Rəhimli kəndində Milli Qəhrəmanın anım mərasimində danışılıb.

Rayon rəhbərliyi, polis işçiləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ağsu rayon şöbəsinin əməkdaşları, kənd sakinləri, ictimaiyyət nümayəndələri kənd qəbiristanlığında şəhidin məzarını ziyarət edib, ruhuna dua oxuyublar.

Azərbaycanın ilk Milli Qəhrəmanının təhsil aldığı kənd məktəbində onun büstü qarşısında keçirilən anım mərasimində çıxış edənlər bildiriblər ki, 1969-cu il dekabrın 2-də Bakının Qobustan qəsəbəsində dünyaya gələn Yusif torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə əzmkar iradəsi ilə seçilirdi. Yusif Əliyev 1991-ci il sentyabrın 14-də Buzluq kəndinə hücuma keçən erməni quldurlarının qarşısını almaq üçün digər yoldaşları ilə birgə ölüm-dirim savaşına atılmışdı. Qeyri-bərabər döyüşdə döyüş sursatı tükənsə də o, güllə yağışı altında Buzduğa sursat çatdırmağa müvəffəq olur. Lakin bu, onun həyatı bahasına başa gəlir. Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Yusif Əliyevin nəşi ata-baba yurdu olan Ağsu rayonunun Rəhimli kənd qəbiristanlığında torpağa tapşırılıb.

Məktəblilər Azərbaycana, milli ordumuza, şəhidlərimizə həsr olunan şeirlər söyləyiblər.

Mərasim məktəbin akt zalında davam etdirilib. Əvvəlcə Yusif Əliyevin həyat yolundan bəhs edən sənədli film nümayiş olunub. Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev, Milli Məclisin deputatı Tahir Kərimli, rayon polis şöbəsinin rəisi Eldar Paşayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin rəisi Nizami Heybətov çıxış edərək, Yusif Əliyevin şərəfli həyat yolundan, erməni qəsbkarları tərəfindən xalqımıza qarşı törədilən soyqırımı aktlarından danışıblar.

Milli Qəhrəmanın atası Əliyusif Əliyev, oğlu Əlizadə İsmayıl şəhidlərimizin ailə üzvlərinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, bütün Azərbaycan xalqına, mərasim iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

Şəhidin nəvəsi, əsgər forması geyinən səkkiz yaşlı Yusif Əlizadənin "Bircə tez böyüyəydim, Qarabağa gedib, babamın intiqamını alaydım" sözləri mərasim iştirakçılarında qürur dolu hisslər yaşadıb.

# Vətəni sevmək azdır, onu qorumaq gərək...



Sabunçu rayonundakı 94 nömrəli tam orta məktəbdə hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, tədbir Dövlət himninin səslənməsi ilə başlayıb, Qarabağ torpaqlarının azadlığı, suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şagirdlər vətənpərvərlik mövzusunda bədii kompozisiya göstəriblər.

Rayon icra hakimiyyəti başçısının müavini Rəna Fərəcova çıxış edərək gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi üçün belə tədbirlərin əhəmiyyətindən, gənclərə vətənpərvərlik ruhunun aşılanması istiqamətində aparılan işlərdən, ölkəmizdə həyata keçirilən hərbi quruculuq, müdafiə sənayesi sahəsindəki islahatlar barədə danışıb, gənclərin vətənpərvər yetişməsində valideynlərlə yanaşı, təhsil ocaqlarının da çox böyük rol oynadığını xüsusi vurğulayıb.

"Qarabağ müharibəsi əlilləri, şəhid ailələri" İctimai Birliyinin sədri Mehdi Mehdiyev öz çıxışında Qarabağın azadlığı uğrunda Vətən övladlarının döyüş əzmi, göstərdiyi qəhrəmanlıq və igidlik nümunələrindən söhbət açıb.

Rayonun ictimai həyatında səmərəli fəaliyyətlərinə görə bir qrup Qarabağ müharibəsi əlili və veteranlara fəxri fərmanlar təqdim edilib, həmçinin İctimai Birliyin təsis etdiyi medallar verilib.

Sonra tədbir iştirakçıları xatirə şəkli çəkdiriblər.

*Hərbi ənənələr, yeniliklər*

# “Qrom-E1” qanadlı raketi



Rusiyanın "Taktiki raket korporasiyası" ilk dəfə "Maks-2015" sərgisində müasir aviasiya məhvetmə vasitələrini təqdim edib. Onların arasında idarəolunan qanadlı "Qrom-E1" və "Qrom-E2" raketləri nümayiş etdirilib. Hazırda bu raketlər sınaq mərhələsindədir. Hər iki məhvetmə vasitəsi aerodinamik sxemə və vahid şəklə salınmış konfiqurasiyaya malikdir. Onları təyyarə daşıyıcılarının silahlanma bölməsində yerləşdirmək mümkündür. "Qrom-E1"-in əsas fərqi raket mühərrikinin arxa hissəsində olmasıdır. "Qrom-E2"-də isə mühərrikin yerinə əlavə olaraq mərmi-fuqas döyüş hissəsi yerləşdirilib.

Onların bütün əsas parametrləri məxfiləşdirilib. İstehsalçılar ancaq onun hər iki aviasiya məhvetmə vasitəsinin start çəkisinin 600 kiloqramdan çox olduğunu qeyd ediblər. Bununla "Qrom-E1" döyüş hissəsinin çəkisi 300 kiloqram, "Qrom-E2"-nin isə 450 kiloqramdan çoxdur. Onun salonunda "Qrom-E1" "Qrom-E2" adı altında maket təqdim olunub ki, burada hər ikisinin aerodinamik sxemi və hərəkət prinsipi göstərilir. Hər ikisi təyyarə daşıyıcısından atılandan sonra qanadları açılaraq işçi vəziyyətinə gətirilir, sonra isə raket mühərrikinin ("Qrom-E1"-də) buraxılması həyata keçirilir. Hər iki məhvetmə vasitəsinin uzaqda yerləşən HHM oyektlərinin yerüstü hədəflərini məhv etmək üçün uçuş uzaqlığı lazımi qədər olmalıdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Suriyanın Deyrizor şəhəri İŞİD terrorçularından tamamilə təmizlənib



Suriyanın Deyrizor şəhərinin İŞİD terrorçularından azad olunması istiqamətində əməliyyat keçirilib. Əməliyyat nəticəsində şəhər İŞİD-dən geri alınıb.

ABŞ-ın rəhbərlik etdiyi koalisiya qüvvələrinin və Rusiyanın dəstəyi ilə azad olunan Deyrizor şəhəri terror təşkilatının üzvlərindən tamamilə təmizlənib.

## Əfqanıstan-Tacikistan sərhədində atışma olub, bir nəfər ölüb



Tacikistanın Əfqanıstan ilə sərhəddəki "Baxorak" məntəqəsi istiqamətində 12 narkotik qaçaqmalçısı bu ölkənin dövlət sərhədini pozub.

Tacikistan Milli Təhlükəsizlik Komitəsinin verdiyi məlumata görə, təhlükəsizlik qüvvələri ilə atışmada sərhəd dəstəsinin komandiri, polkovnik Xayriddin Axtamov həlak olub, dörd nəfər isə yaralanıb. Cavab atəşi ilə üç sərhəd pozucusu öldürülüb, qalanları Əfqanıstan ərazisinə qaça bilib. Təhlükəsizlik qüvvələri hadisə yerində dörd avtomat, 33 kiloqram narkotik maddə aşkar edib.

Tacikistan Xarici İşlər Nazirliyi Əfqanıstan tərəfinə hadisə ilə bağlı rəsmi nota göndərib.

## İranın Yəməndəki səfirliyi atəşə tutulub



"Əl-Ərəbiyə" televiziya kanalının məlumatına görə, paytaxt Səna şəhərində hüsilərlə sabiq Prezident Abdullah Salehin tərəfdarları arasında baş verən silahlı toqquşmada atılan raketlərdən biri İran səfirliyinin binasına düşüb.

Ölən və yaralananlar haqqında məlumat verilmir. Bildirilir ki, raket zərbəsi nəticəsində səfirliyin binasında yanğın baş verib.

## ABŞ və Cənubi Koreya tarixdə ən böyük birgə hərbi təlimlərə başlayıb



ABŞ və Cənubi Koreya hərbi hava qüvvələrinin dekabrın 4-də başlayan ən irimiqyaslı birgə təlimlərində yüzlərlə təyyarə iştirak edir.

Birgə manevrlər KXDR-in ötən həftəki qitələrarası ballistik raket sınağına cavab olaraq keçirilir.

Vigilant Ace adlandırılan məşqlər beş gün davam edəcək. Təlimlərə 200-dən çox təyyarə, o cümlədən ABŞ-ın altı F-22 qırıcı təyyarəsi, rəsmən təsdiqlənməmiş informasiyaya görə, səsdən sürətli B-1B strateji bombardmançı təyyarələri, habelə 12 min amerikalı hərbi qulluqçu cəlb olunub. Pxenyan bu manevrləri KXDR-ə qarşı açıq təxribat adlandırıb və istənilən an nüvə müharibəsinə gətirib çıxara biləcəyini bəyan edib.

## Çində nəsli kəsilmiş heyvana məxsus yumurtalar tapılıb



Çində tədqiqatçılar 66 milyon il əvvələ aid və nəsli kəsilmiş heyvana məxsus 215 yumurta aşkar ediblər.

Teruzor adlı uçan gəmiriciyə aid 215 yumurtanın 16-da hələ də rüşeym qalıqlarının olduğu bildirilib.

Los-Anceles Tarix Muzeyinin nümayəndəsi Luis Chiappe deyib ki, bu yumurtalar vasitəsilə nəsli tükənən bu heyvan haqqında xeyli məlumatlar üzə çıxacaq. Araşdırmalar davam etdirilir.

**AZƏRTAC-ın materialları əsasında**

Hərbi təhsil

# Hazırlıq yüksək səviyyədədir



*Kursantların bilik və bacarıqlarını artırmaq üçün mütəmadi olaraq C.Naxçıvanski adına Hərbi Liseydə silsilə tədbirlər keçirilir. Belə diqqətçəkən və hamının dərin marağına səbəb olan tədbirlərdən biri də bu günlərdə "Kiçik Akademiya" layihəsi çərçivəsində keçirildi. Yarış-müsabiqədə müxtəlif bölükləri təmsil edən üç komanda - "Mübariz", "İstiqlal" və "Tufan" komandaları iştirak edirdi.*

Komandalar səhnədə yerlərini tutduqdan sonra yarış-müsabiqəyə start verildi. Əvvəlcə münsiflər heyəti elan olundu. Yarışın qaydaları iştirakçıların nəzərinə çatdırıldı. Müxtəlif mövzularda olan suallar ekrana gəlir və komandalar onları seçib bir dəqiqə ərzində cavablandırırdılar. Cavabın doğru olduğunu münsiflər heyətinin üzvləri təsdiq edəndən sonra xallar komandaların hesabına yazılırdı.

Komanda üzvləri gərgin anlar, həyəcanlı dəqiqələr yaşayırlar. Hamı fikirləşir, hamı düşünür. Biliklər, bacarıqlar sınağa çəkilir. Kursantlar suallara cavab hazırladıqdan sonra onu münsiflər heyətinə təqdim edirlər. Beləcə, yarış-müsabiqə öz axarı ilə davam edir. Komanda üzvləri birinci yerə çıxmaq üçün daha çox xal toplamağa çılışırlar.

Yarış-müsabiqənin fasilələrində 38 nömrəli musiqi məktəbinin şagirdi Ağaməli Niftəliyev kamançada milli musiqiləri ifa etdi. Onun ifaları tədbir iştirakçılarında xoş ovqat yaratdı.

Kursantların yarışda fəallığını gördükcə düşünürsən ki, belə tədbirlər onların nitq mədəniyyətinin inkişafına, dünyagörüşlərinin formalaşmasına müsbət təsir göstərəcək. Sabahımızın zabitləri olacaq kursantlar bu gün hamımızın gözü qarşısında yüksək hazırlıq nümayiş etdirirlər. Nəyə qadir olduqlarını göstərmək üçün bacarıq və biliklərini ortaya qoyurlar. Təbiidir ki, belə maraqlı və dəyərli tədbirlərin keçirilməsi kursantları



yalnız qələbələrə ruhlandırır, onların hazırlığını artırır. Hazırlıq yüksək olanda isə kursantlar yalnız uğur qazanırlar.

Nəhayət, gərgin keçən yarış-müsabiqə sona çatır. Qaliblər elan edilir. Məlum olur ki, birinci yerə "Mübariz", ikinci yerə "İstiqlal" və üçüncü yerə "Tufan" komandası çıxıb.

Komandaların kapitanları və tədbirin hazırlanıb keçirilməsində böyük əməyi olan kimya müəllimi Gülşən İsgəndərova fəxri fərmanlarla mükafatlandırıldılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

---

Əks-səda

# "Torpaqlarımızı işğaldan azad edəcəyik"



Hörmətli redaksiya!

Qəzetinizin 29 noyabr tarixli sayında oxuduğum "Əsgər oğluma məktub" məqaləsi məni də çox duyğulandırdı. Şəfaqət ana sanki bizim də uşaqlığımıza bələd imiş. Biz də zamanında taxta avtomatlarla, taxta qılınclarla "dava-dava" oynayardıq. Heç kim "düşmən" olmaq istəməzdi. Buna baxmayaraq oynayardıq. O illər arxada qalıb. İndi əsgərik. "Dava-dava" oyununda "düşməni" məğlub edən uşaqlar indi Vətənin keşiyindədi, vətəndaşlıq borcunu yerinə yetirir, torpaqlarımızı qoruyur! 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü təsdiqlədi. Bir vaxtlar "dava-dava" oynayanlar düşməni Azərbaycan əsgəri olaraq məğlub edəcək.

Aprel döyüşlərində məktəbli idik. Sıramızda döyüş bölgələrinə getmək istəyənlər də oldu. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbəsinə müraciət etdik. İcazə vermədilər. Biz də hamı kimi dörd-beş günün döyüşləriylə nəfəs aldıq. Torpaqlarımız biz hərbi xidmətə gedənə kimi azad edilməsə, hər birimiz Samid İmanov, Murad Mirzəyev və digər qəhrəmanlar kimi döyüşəcəyimizə and içdik. İndi əsgərik. Ali Baş Komandanın hər əmrini səbirsizliklə gözləyirik.

Hörmətli redaksiya!

Xahiş edirik ki, qəzetiniz vasitəsilə Şəfaqət anaya, bütün analara çatdırasınız ki, sülh danışıqları baş tutmasa, döyüşlər olacaq. Biz torpaqlarımızı işğaldan azad edəcəyik. Bizdən sonra hərbi xidmətə çağırılanlar işğaldan azad edilmiş torpaqlarımızda xidmət edəcəklər. Onda analar oğullarına daha nikbin məktublar yazacaqlar.

Bütün analar əmin olsunlar ki, olduqca rahat xidmət yerimiz var, qadın aşpazlar bizə dadlı milli xörəklər bişirir, komandirlərimizin bütün əmrlərini, göstərişlərini məsuliyyətlə yerinə yetiririk. Əmin olsunlar ki, Ali Baş Komandanın hər əmrini yerinə yetirməyə tam hazırıq. Bu günlərdə başa çatan təlimlər də təsdiqlədi ki, ordumuz yüksək döyüş hazırlığına malikdir. Analar qürurlansınlar ki, oğulları belə bir ordunun əsgəridirlər. Hər birimiz torpaqlarımızın işğaldan azad ediləcəyi günün sevincini əsgər olaraq yaşamaq istəyirik...

Narahat olma, Şəfaqət ana! Mənim anam kimi sən də bütün əsgərlərin anasısan!

**Əsgər**
**Aslan ASLANZADƏ,**
**"N" hərbi hissəsi**

---

Ehtiyatda olan polkovnik İlqar ƏLİYEV:

# Serjin və Vigenin dueti ifasında - erməni qoşunlarının təlimi adlanan oyunu

Dekabrın 2-də qondarma "DQR"-də Serj və Vigenin nəzəriyyəsi, taktikası ilə Ermənistanın Silahlı Qüvvələrinin birləşmiş qoşun qruplarının "genişmiqyaslı" təlimi keçirilib. Erməniləri bilmirəm, mən bu təlimi təhlil edərək, mümkün olmayanı kəşf etdim - əgər həqiqətən belədirsə (əslində belə deyil) bu, Ermənistan Silahlı Qüvvələrinin təkmilləşməsi üçün böyük bir sıçrayışdır. Hansı ki, ilk növbədə, Ermənistan Silahlı Qüvvələri üçün "ən uğurlu" nəticədir və kitablara, hərbi dərsliklərə daxil edilməlidir.

Birincisi, təlim rəhbərinin niyyəti (fikri) qarşıya qoyulmuş təlimin məqsədinə və təlimə cəlb edilən qüvvə və vasitələrə uyğun deyil. Erməni strateqləri açıq-aydın şəkildə qoşun qruplaşması ilə taktiki manqanı, buna əlavə olaraq birləşməni də qorxuya salıblar.

Təlimin məqsədi ilə "birləşmiş qoşun qrupu" başa düşülən deyil - harada və nə vaxt müdafiəni tutacaq, düşməninin hansı yarılmış xəttində dayanacaq, sonrakı əks-hücuma və onun məhv edilməsinə keçəcək.

Əgər müdafiə xətti anlayışını sözbə-söz nəzərə alsaq, onda mən Baqramyanın nəticələrinə görə sual vermək istəyirəm: siz düşmənin yarılmış ilk mövqeyini və ilk müdafiə xəttini necə saxlaya biləcəksiniz? Və yaxud da "B" varinatına keçərək "dostunuza zəng edəcəksiniz?" Xəbər edəcəksiniz? Axı, təlimin videoyazısı üzrə cəlb olunan qüvvə və vasitələrin toburdan az olması və bir neçə tankın xaotik olaraq döyüş sahəsində yerdəyişməsi görünür. Bəlkə sizə görə bir tabor və ya bir neçə tank qruplaşmasıdır? Kim və hansı taktiki və operativ səviyyədə əks-hücumu yerinə yetirir? Əgər siz əks-hücumu birləşmiş qruplaşma ilə aparırsınıza, onda bu, nəsə, bir yenilikdir.

Əgər birbaşa təlimin gedişi haqqında desək, onda burada erməni "sərkərdələri" artıq uğur əldə ediblər. Video-çəkilişlərdən görünür ki, bu təlimlər taktiki-sıra təliminə də oxşamır. Atəş açmayan, ora-bura hərəkət edən bir neçə döyüş maşını və artilleriya qruplaşmasını imitasiya edən bir neçə minaatan bölüyü "hara gəldi, onun üçün hədəf sayılanlara" atəş açır. Videokadrda açıq-aydın görünür ki, erməni ordusu tərəfindən təriflənən döyüş maşını "ildırım sürətilə və müvəffəqiyyətlə" öz yolunda olan maneələri dəf etməyə can atır.

Mənim fikrimcə, "Erməni sezarları" müharibənin aparılması üzrə traktatları və postulatları oxuyaraq dahi Sun Tzinin "Əgər sən zəifsənsə, özünü güclü kimi göstər" nəzəriyyəsini rəhbər tuturlar. Bunu elə etmək lazımdır ki, düşmən sizə inansın. Və yaxud da onlar Deyl Karnegini mütaliə edərək onun "Əgər sən dəlisənsə, özünü ağıllı kimi göstər" prinsipini rəhbər tuturlar. Şəxsən mən buna da inanmıram.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 668
Nüsxə 4600